"Təsdiq edirəm"
Azərbaycan Respublikasının
mədəniyyət və turizm naziri

Əbülfəs Qarayev

"17" 05 2017-ci il

"İlin ən yaxşı kitabxanası" müsabiqəsinin

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə "İlin ən yaxşı kitabxanası" müsabiqəsinin (bundan sonra – Müsabiqə) keçirilmə şərtlərini, iştirakçıların qiymətləndirmə meyarlarını, qaliblərin mükafatlandırılması qaydalarını müəyyən edir.

1.2. Müsabiqə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmri əsasında 2 ildən bir keçirilir.

1.3. Müsabiqə kitabxanalarda yeni iş üsullarının və innovativ layihələrin reallaşdırılması, kitabxanaçıların yaradıcı potensialının inkişaf etdirilməsi məqsədilə təşkil edilir.

1.4. Müsabiqə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən şəhər (rayon) mərkəzləşdirilmiş kitabxana sistemləri arasında keçirilir.

1.5. Müsabiqədə qalib gəlmiş kitabxana və onun üç aparıcı əməkdaşı Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən xüsusi mükafatlarla təltif edilir.

1.6. Müsabiqənin həyata keçirilməsi qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilə bilər.

## 2. Müsabiqənin təşkili və keçirilmə müddəti

2.1. Müsabiqənin keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Müsabiqə Komissiyası yaradılır;

2.2. Müsabiqə Komissiyasının tərkibinə kitabxana-informasiya sahəsində yüksək təcrübəsi olan mütəxəssislər cəlb edilir;

2.3. Müsabiqə Komissiyasının tərkibi Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Aparatının rəhbəri tərəfindən təsdiq edilir. Komissiyanın tərkibi sədr və katiblə birlikdə 7 nəfərdən ibarətdir;

2.4. Müsabiqə Komissiyasının fəaliyyətinə onun sədri rəhbərlik edir.

2.5. Müsabiqə Komissiyası aşağıdakı hüquqlara malikdir:

2.5.1. müsabiqəyə təqdim edilən materialları nəzərdən keçirmək, onlardan praqmatik, qabaqcıl hesab edilənləri qiymətləndirmək və bu barədə müvafiq qərar qəbul etmək;

2.5.2. təqdimat mərasiminin keçirilməsini təşkil etmək;

2.6. Müsabiqə Komissiyasının iclası sədr tərəfindən çağırılır. İclas Komissiyanın 2/3-si iştirak etdikdə səlahiyyətli hesab olunur;

2.7. Komissiya hər bir təqdim olunan işə 10 ballıq şkala əsasında qiymət verir. Ən çox bal toplayan işlər müvafiq nominasiya üzrə qalib hesab olunur və müvafiq protokolla rəsmiləşdirilir;

2.8. Hər bir nominasiya üzrə qalib gəlmiş kitabxana 500 (beş yüz) manat pul mükafatı və həmin kitabxananın 3 nəfər aparıcı əməkdaşı diplomla təltif olunur

2.9. Pul mükafatı kitabxananın hesabına köçürmə yolu ilə ödəniləcəkdir;

2.9. Müsabiqə iki ildən bir iyun ayının 1-dən sentyabr ayının 1-ə kimi həyata keçirilir.

## 3. Müsabiqənin məzmunu

3.1. Müsabiqə 3 istiqamət üzrə keçirilir:

3.1.1. "İlin ən yaxşı Mərkəzi Kitabxanası";

3.1.2. "İlin ən yaxşı Uşaq şöbəsi";

3.1.3. "İlin ən yaxşı kitabxana filialı";

## 4. Müsabiqə nominasiyaları üzrə layihələr üçün xüsusi tələblər

4.1. "İlin ən yaxşı Mərkəzi Kitabxanası" nominasiyası üzrə:
4.1.1. şəhər (rayon) kitabxanalarının mütəxəssislərinin peşəkar və yaradıcı potensialının inkişafına kömək edən sosiomədəni layihələr;
4.2. "İlin ən yaxşı Uşaq şöbəsi" nominasiyası üzrə:
4.2.1. uşaqların intellektual, mənəvi inkişafına kömək edən, onlara mütaliə vərdişləri aşılayan və bu istiqamətdə adekvat ailə mühitinin formalaşdırılmasına dair layihələr;
4.3. "İlin ən yaxşı kitabxana filialı" nominasiyası üzrə:
4.3.1. oxucuların mütaliəyə marağının artırılması istiqamətində həvəsləndirici layihələr.

## 5. Müsabiqədə iştirakın irəli sürülməsi və tələb olunan sənədlər

5.1. Əsasnamənin 3.1.1-ci bəndi üzrə müəyyən edilmiş nominasiyaya iştirak üçün kitabxananın rəhbəri tərəfindən müraciət olunur;
5.2. Əsasnamənin 3.1.2. və 3.1.3-cü bəndləri üzrə müəyyən edilmiş nominasiyalarda iştirak üçün şöbə və filial müdiri tərəfindən təqdimat verilir;
5.3. Müsabiqədə iştirak üçün təqdim olunan müraciətdə müəssisənin adı, əlaqə vasitələri mütləq qeyd olunmalıdır;
5.4. Müraciətə əlavə edilir:
5.4.1. Kitabxananın yarımillik fəaliyyəti barədə maksimum 5 səhifə həcmində arayış (Səhifə A4 formatında, şrift "Arial", sətirlər arası interval 1, faylın maksimum ümumu həcmi 3 mb-dan çox olmamaqla);

5.4.2. İlin ikinci hissəsi üçün kitabxana tərəfindən həyata keçiriləcək və əvvəl tətbiq edilməmiş layihə təklifi;
5.5. Müsabiqəyə təqdim edilmiş layihə ilin ikinci hissəsində kitabxana tərəfindən mütləq icra edilməlidir;
5.6. Kitabxana tərəfindən Vikipediyanın Azərbaycan dili bölməsində milli-mədəni irsimizə dair yaradılmış məqalənin linki;
5.7. Arayışda göstərilən tədbirlərə, həyata keçirilən layihələrə dair təsdiqedici sənədlər və fotoşəkillər (maksimum 5 ədəd fotoşəkil) əlavə olunmalıdır;
5.8. Hər bir mərkəzləşləşdirilmiş kitabxana sistemi yalnız bir nominasiya üzrə təqdimat verə bilər.

## 6. Müsabiqəyə yekun vurulması və qaliblərin mükafatlandırılması

6.1. Müsabiqə Komissiyasının yekun protokolu əsasında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmri ilə qaliblər mükafatlandırılır;
6.2. Mükafat Komissiyanın sədri və yaxud onun vəkil təyin etdiyi şəxs tərəfindən təntənəli şəkildə təqdim edilir;
6.3. Qalib kitabxananın rəhbəri və ya onun vəkil etdiyi şəxs mərasimdə şəxsən iştirak etməlidir;
6.4. Təqdimat mərasimində qalib gəlmiş kitabxanaların fəaliyyəti barədə qısa məlumat verilməlidir;
6.5. Müsabiqənin yekunları haqqında məlumat təqdimat mərasimindən sonra Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin rəsmi saytında və mətbu orqanlarında yayımlanmalıdır.